# Zaqatalanın ölməz qəhrəmanı, şəhid Əhməd Laçınov!

## ...və yaxud yuxusu gerçəkləşən – cəsur Xüsusi Təyinatlı cəfakeş...

*...Vətən Müharibəsində xüsusi şücaət göstərərək, həlak olan igid el oğullarımızın keçdikləri şanlı qəhrəmanlıq yolunda əbədi olaraq xatırlanacaq tarixi təsadüflər, əfsanələr və hadisələr baş verib. Şəhid Əhməd Laçınovun qızğın döyüşlər məqamında başına gələnlər kimi. Bacısı Mesed xanım deyir ki, qardaşının sağ qalan döyüşçü yoldaşları çox-çox heyfislənərək danışırlarr ki, cəbhənin Füzuli bölgəsində gedən gərgin döyüşlərdə qısa fasilə yaranan zaman Əhməd bir anlıq yuxuya gedir. Yuxuda görür ki, şəhid olub. Qəfildən yuxudan ayılıb görür ki, sənrgərdə döyüşçü yoldaşının yanındadır. Əhməd çiyin-çiyinə düşmənə qarşı vuruşan döyüşçü yoldaşına: "mən yuxuda görmüşəm ki, şəhid olmuşam, deyəsən mənim sonuncu döyüşüm olacaq..." – deyir. Həmin gün 2 oktyabr 2020 –ci il idi...*

**Bu dağların daşıynan,
Bulud oynar başıynan.
Oğlu ölən ananın,
Yeməyi göz yaşıynan.**

İkinci Vətən Müharibəsi bizə yurdumuzun mərd oğullarını yenidən tanıtdı. Bu savaş bir daha göstərdi ki, Azərbaycanın iradəli qadınları daima mərd, qəhrəman oğullar dünyaya gətirir. Bu oğullar Vətənin ən ağır günlərində dayaq olaraq, sipər qalaraq elə şücaətlər göstərirlər ki, nəinki bizləri, bütün dünya xalqlarını heyrətə gətirdilər. Cəngavər, igid oğullarımız 44 günlük müharibədə bunu sübut etdilər. Fəxr yerimiz oldular, qürur mənbəyimizə çevrildilər. Azərbaycanda yaşayan dinindən, dilindən, millətindən asılı olmayaraq can deyib, onun uğrunda ölümün gözünə dik baxaraq döyüşlərə qatıldılar. Öz hünərləri ilə şanlı tarix yazdılar və şəhid oldular, Vətən üçün, Ana üçün, Bacı üçün, qardaş üçün... Bütün-bütün xalqlar üçün... Vətən müharibəsindəki qələbəmiz bu oğulların çiyinlərində xalqımıza əvəzsiz töhfə oldu... Haqqında söhbət açmaq istədiyim əfsanəvi döyüşçülərdən biri də Əhməd Qurban oğlu Laçınovdur. Şəhidlik zirvəsinə ucalan bu Vətən fədaisi Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində 28 iyul 1999 –cu il tarixində dünyaya gəlib. Uşaqlığı qədim tarixə malik neçə-neçə üsyanların, döyüşlərin, tarixi prosseslərin şahidi olmuş, görkəmli sərkərdələrin, dəstə başçılarının təslim olduğu, hətta torpaq iddiası ilə yürüş edən Gürcü Çariçası Tamaranın məğlub olduğu bu dağlar diyarında keçib. Əhməd idmanı çox sevib, hələ Yuxarı Çardaxlar kəndindəki Birinci Qarabağ Müharibəsində həlak olmuş Ramaza Muradov adına tam orta məktəbində təhsil aldığı dövrdən döyüşkən ruhlu olub, hərbi hazırlıq dərslərində həmişə fərqlənib. Rayondakeçirilən hərbi idman yarışlarında dəfələrlə qalib yerləri tutub...

Əhməd Laçınov ailəsinin son beşiyi, 3 bacının 1 qardaşı olub. Onun valideynləri Qurban kişini və Züleyxa ananı Yuxarı Çardaxlar kəndində çox zəhmətsevər, mülayim təbiətli, çox tərbiyəli insanlar kimi tanıyırlar. Onlar övladlarını da əməksevər, tərbiyəli, ağıllı, savadlı böyüdüblər. Ailə başçısı Qurban Laçınov uşaqlarını böyüdüb, ərsəyə çatdırmaq, təhsilli etmək üçün həyat yoldaşı Züleyxa xanımla birlikdə çox əziyyət, gərgin zəhmət çəkiblər. Buna görə də şəhidin atası uzun müddət Rusiya Federasiyasının müxtəlif şəhərlərində və Mahaçqala şəhərində müxtəlif sahələrdə çalışıb. 3 qızını və 1 oğlunu öz arzularını uyğun oxutdurub və eyni zamanda da Vətəninə, əməyə bağlılıq və sevgi aşılayıblar...

...Şəhid Əhməd Laçınovun ailəsində olarkən bir daha bu ailənin bir nümunəvi, ibrətamiz, sakit, mülayim xasiyyətli, hələ də İkinci Vətən Müharibəsində itirdikləri, qurban verdikləri, qaytara bilməyəcəkləri, dəyərli bir el oğliunun sevgisi, yanğısı, acısı, itkisi, ağrısı ilə yaşadıqlarının şahidi oldum.

Şəhid atası Qurban kişi hələ də susur, anası Züleyxa xanım gözlərinin yaşını saxlaya bilmir, qardaş itkisindən özlərinə gələ bilməyən bir-birindən zərif, yüksək dəyərlərə malik, ağıllı-kamallı bacıları sanki baş verənlərə inanmırdılar. Yeganə qardaşına qarşı olan sevgidən doymayan şəhidin əzizləri kövrələ-kövrələ, sakitcə Əhməd haqqında xatirələrini və bacıları üçün necə qardaş olduqlarından danışırdılar. Mənimlə daha çox söhbət edən isə şəhidin 1995 –ci il təvəllüdlü Əhməddən 4 il böyük bacısı Mesed xanım oldu. Onların söhbətlərindən məlum oldu ki, Əhməd Qurban oğlu Laçınov 2015 –ci ildə Yuxarı Çardaxlar kəndindəki şəhid Ramazan Muradov adına tam orta məktəbinin 9 –cu sinfini bitirdikdən sonra Zaqatala İdarəetmə və Texnologiya Kollecinə daxil olub. Elə həmin ilin iyul ayının 8 –də Zaqatalanın vətənpərvər, mərd oğlu, böyük həvəslə, dəyanətlə, kişi qeyrəti ilə Milli Ordu sıralarına həqiqi hərbi xidmətə getdi...



*Qeyd etməliyəm ki, ruhu Vətənin göylərində bərq vuran Azərbaycanımızın xilaskarı olan Əhməd Laçınov ailədə sonuncu övlad olub. Bu ailənin ilk övladı şəhidin bacısı 1991 –ci il təvəllüdlü, ixtisasca mühasib olan Aytən xanım artıq ailə həyatı qurub və qız övladı da var. Sakitcə söhbətimizi müşahidə edərək hələ də qardaş itkisinin şokunda yaşayan di bəracısı Çinarə də ailə həyatını qurub. Bir oğlan anası olan Çinarə ibtidai sinif müəllimməsi olsa da işləmir. Laçınovlar ailəsinin 3 –cü övladı, şəhid qardaşını, daima ciyər parasını saymış Mesed xanım isə qardaşı kimi Zaqatala İdarəetmə və Texnologiya Kollecini əla qiymətlərlə bitirib.*



**Əziziyəm ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş mən özüm öləydim,
Deməyəydim Vay, qardaş!**

Bacısı Mesedin dediklərindən:

-Bizim əvəzolunmaz, şirin, canlara dəyən qardaşımız, məktəb illərindən hərbiyə meyilli idi. İdmanla çox məşğul olurdu, tez-tez dağlara qaçaraq yürüş edər, qaçardı. Qardaşım çox zəhmətkeş, ailecanlı, qayğıkeş və səmimi bir gənc idi. Həm yaşıdları, qohum-əqrəması arasında böyük hörməti var idi... Böyüklərlə böyük, kiçiklərlə kiçik kimi münasibət bəsləyirdi. Valideynlərimizin və bizim sağ əlimizdi. Hərbiyə marağı çox idi... Gecə-gündüz Azərbaycanla – Ermənistan arasında olan gərgin münasibətlərdən, işğal altında olan Qarabağ torpaqlarından çox narahatlıq keçirərdi... Mənfur düşmənə nifrəti çox idi, onların törətdikləri vəhşiliklərini əvəzini çıxmaq hissləri ilə yaşayırdı... Niyyəti hərbi xidmətinin müvəffəqiyyətlə başa vurub, nəqliyyat polisində işləmək idi... Lakin bizim də, qardaşımızın şirin arzularımız yarımçıq qalıb...

...İkinci Vətən Müharibəsində cəngavərliyi, cəsurluğu silinməz izlər qoymuş – Əhməd Laçınov 2019-cu iyulun 8-də Milli Ordu Sıralarına həqiqi hərbi xidmətə gedib... Əhmədi əvvəlcə Gəncə şəhərindəki N saylı hərbi hissədə xidmət edib. Atasının dediklərinə görə oğlu Əhməd Laçınov and içmə mərasimindən sonra hərbi xidmətini Cəlilabad rayonu Göytəpə şəhid bacısı Mesed Laçınova söhbət zamanı bildirdi ki, Xüsusi Təyinatlılarda xidmət edəndən sonra qardaşı Əhməd tamamilə dəyişilmiş, əsil idmançı cüssəli, mərd, cəsur hərbiçi olmuşdur. O, bizimlə telefonla danışanda deyirdi ki: "Allah Sizi qorusun, bizdən narahat olmayın hər şey əladır, sakitlikdir, kişi kimi hərbi xidməti borcumuzu ləyaqətlə yerinə yetiririk. Erməni düşmənlərə həm psixoloji, mənəvi və digər təsirlər göstəririk. Onlar tülkü kimi gizlənərək, qəfildən atəşkəsi pozur, ərazilərimizi tərk etmək istəmirdilər... Artıq onların öz yuvalarına qovmağı, susdurmağın və gəbərtməyin vaxtı çatmışdı...

...Qardaşım bizimlə danışanda heç vaxt onların respublikamızın müxtəlif bölgələrində, türk zabitlərinin rəhbərliyi ilə, çox ciddi, çox şaxəli təlimlər keçmişdilər və tam müharibəyə hazırlanmışdılar. Ancaq Əhməd Müharibənin reallaşmasından danışmırdı. Demə, əzizimiz o xəyanətkarlara hərbiçi yoldaşlarıyla cavab verməyə hazır idilər..." deyə - Mesed bacısı əlavə etdi...

**Aslan tək kükrəyib düşmən üstünə,
El-el, oba-oba zəfərlər çaldın.
Bir can fəda verib Vətən yolunda,
Milyon ümidlərdə əbədi qaldın.**

Məhz, belə azğın düşmənə qar üz-üzə mübarizə aparmaq üçün tam təcrübəli, peşəkar hərbiçi kimi.

*Əhməd hələ Zaqatala İdarəetmə və Texnologiya Kollecində təhsil alanda elə bil duymuşdu ki, Qarabağda işğal altında olan torpaqların işğaldan azad edilməsində iştirak edəcək və... hətta hırbi yoldaşları ilə zarafatlaşarkən demişdi ki, vaxt gələcək Siz mənimlə qürur hissi duyacaqsınız və adımı fəxarətlə yad edəcəksiniz..." Bacıları Aytən, Çinarə və Mesed xatırladılar ki, fiziki cəhətdən hazırlıqlı, mənəvi cəhətdən möhkəm olan qardaşları Əhməd daima idmanla məşğul olurdu. Həyətlərində hər gün saatlarla dartındığı turnik yadigar qalıb... deyirlər əzizləri... Elə bil ki, Əhməd Laçınov hələ tələbəlik dövründən müharibəyə hazırlaşırdı...*

***Əhməd Laçınov ailəsinin son beşiyi, 3 bacının 1 qardaşı olub. Onun valideynləri Qurban kişini və Züleyxa ananı Yuxarı Çardaxlar kəndində çox zəhmətsevər, mülayim təbiətli, çox tərbiyəli insanlar kimi tanıyırlar. Onlar övladlarını da əməksevər, tərbiyəli, ağıllı, savadlı böyüdüblər. Ailə başçısı Qurban Laçınov uşaqlarını böyüdüb, ərsəyə çatdırmaq, təhsilli etmək üçün həyat yoldaşı Züleyxa xanımla birlikdə çox əziyyət, gərgin zəhmət çəkiblər. Buna görə də şəhidin atası uzun müddət Rusiya Federasiyasının müxtəlif şəhərlərində və Mahaçqala şəhərində müxtəlif sahələrdə çalışıb. 3 qızını və 1 oğlunu öz arzularını uyğun oxutdurub və eyni zamanda da Vətəninə, əməyə bağlılıq və sevgi aşılayıblar...***

(davamı gələn sayımızda)

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**